# Şamaxı Şəhər Stadionunun açılışı olub

**Noyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şamaxı Şəhər Stadionunun açılışında iştirak ediblər.**




AZƏRTAC xəbər verir ki, AFFA-nın icraçı vitse-prezidenti Elxan Məmmədov görülən işlər barədə dövlət başçısına və birinci xanıma məlumat verdi.

Bildirildi ki, 2200 azarkeş tutumu olan Şamaxı Şəhər Stadionu UEFA-nın ikinci kateqoriyalı sertifikatına malik olacaq. Bu isə stadionda beynəlxalq oyunların keçirilməsi üçün bütün imkanların olmasından qaynaqlanır. UEFA klub yarışlarının 1-ci, 2-ci və 3-cü təsnifat mərhələsinin, eyni zamanda başqa, bütün yaş qruplarına aid milli komandaların oyunları bu stadionda keçirilə bilər. Bu stadionun inşası üçün maliyyə vəsaitinin 87 faizi UEFA, 13 faizi isə AFFA tərəfindən təmin olunub. Stadionun ərazisindəki idman kompleksində cüdo və güləş növləri ilə məşğul olmaq üçün zal, həmçinin fitnes-zalı inşa edilib. Bundan əlavə, stadionun ərazisində süni örtüklü iki meydança yaradılıb və bu meydançaların 300 nəfər azarkeş tutumuna malik tribunası var.





Bütün bunlar göstərir ki, ölkəmizdə idmanın inkişafı və onun kütləviliyinin təmin olunması istiqamətində dövlət siyasəti davam etdirilir. Əsas diqqət həm də yeni idmançı nəslinin yaradılmasına yönəlib ki, bu cür idman obyektlərinin istifadəyə verilməsi bu məqsədin təmin olunmasında mühüm rol oynayır.

Prezident İlham Əliyev stadionda qapılara qol vurdu.

İcra hakimiyyətinin başçısı **Tahir MƏMMƏDOV:** Cənab Prezident, havanın gözəlliyindən istifadə edib bir məqamı qeyd etmək istəyirəm. Solda gördüyünüz Gülüstan qalası Heydər Əliyev Fondunun dəstəyi ilə Erik Pumer tərəfindən skan olunub. Onun üzdə olan hissələrinin 3D modeli yaradılıb. İndi orada çox ciddi tədqiqat işləri aparmaq və qalanı bərpa etmək olar. Çünki çox qədim və tarixi bir qaladır. Müəyyən vizual tarixi materiallar qalıb, avstriyalı səyyahların çəkdiyi yerlər. Kifayət qədər hündür dağın üstünü örtən böyük qala olub.

Azərbaycan.- 2021.- 2 noyabr.- S.6.